**Dörd şirkətin stimullaşdırıcı lotereya kampaniyası dayandırılmışdır**

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi bu günlərdə cari ilin birinci rübü ərzində qiymətli kağızlar bazarında mövcud durumu əks etdirən fəaliyyət hesabatını açıqlayıb. Hesabatda qeyd edilir ki, hesabat dövrü ərzində korporativ qiymətli kağızlar bazarının həcminin bir sıra amillərin təsiri fonunda azalmasına baxmayaraq, dövlət qiymətli kağızlar bazarında qeydə alınmış artım bütövlükdə bazarın dinamikasına müsbət təsir etmiş və ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk rübündə qiymətli kağızlar bazarının həcmi 1.6 dəfə artmışdır. Eyni zamanda, 2012-ci ilin birinci rübü ərzində korporativ qiymətli kağızlar bazarında əməliyyatların sayı da artaraq, ötən ilin müvafiq dövrü ilə müqayisədə 9 faiz artım təşkil etmişdir. Komitədən əldə etdiyimiz məlumata görə, korporativ qiymətli kağızlarla əməliyyatların 48 faizini səhmlər, 52 faizini isə korporativ istiqrazlar təşkil etmişdir.

Hesabatda bildirilir ki, I rübdə qiymətli kağızlar bazarında broker fəaliyyəti ilə məşğul olmaq üçün 3 lisenziya verilmiş, bununla da 7 peşəkar fəaliyyət üzrə 33 lisenziya qüvvədə olmuşdur. Bu dövr ərzində səhmdarların hüquqlarının müdafiəsi, habelə səhmdarlar arasında münasibətlərin tənzimlənməsi istiqamətində də işlər davam etdirilmişdir. Hesabat dövrü ərzində Komitəyə 144 səhmdar cəmiyyətində səhmdarların hüquqlarının pozulması barədə 46 şikayət ərizəsi və 8 müraciət daxil olmuşdur. Daxil olan müraciətlər əsasında aparılan araşdırmalar nəticəsində 45 səhmdar cəmiyyətin fəaliyyətində ciddi qanun pozuntuları aşkar olunduğuna görə həmin qurumlara qarşı 9150 manat məbləğində inzibati cərimə tətbiq edilmiş, 27 səhmdar cəmiyyətinə fəaliyyətlərində aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması haqqında 27 icrası məcburi göstərişlər verilmişdir.

Hesabat dövründə lotereya fəaliyyətinin tənzimlənməsi istiqamətində də tədbirlər davam etdirilmişdir. «Azərlotereya» ASC tərəfindən edilən müraciətlərə əsasən daha 2 lotereya qeydiyyata alınmış və beləliklə ASC tərəfindən keçirilən lotereyaların sayı 7-yə çatmışdır. Hesabat dövründə lotereyaların keçirilməsi üzrə qanunvericiliyin tələblərinə riayət etməyərək icazəsiz stimullaşdırıcı lotereya təşkil edən 4 şirkətin lotereya kampaniyası dayandırılmış, lotereyaların təşkili və keçirilməsi ilə bağlı hesabatları təqdim etmədiyi üçün 2 stimullaşdırıcı lotereya təşkilatçısı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən inzibati məsuliyyətə cəlb edilmişdir.

AYTƏN